

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 199 (21.860)

*20 oktyabr 2017-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


***Rəsmi xronika***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ukrayna Baş nazirinin birinci müavini, iqtisadi inkişaf və ticarət naziri Stepan Kubivin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə D-8 Zirvə görüşündə xüsusi qonaq qismində iştirak etmək üçün İstanbula gəlib.

* * *

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda İran İslam Respublikasının Birinci vitse-prezidenti Eshaq Cahangiri ilə görüşüb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 19 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda energetika sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin işçiləri də vardır.

**Kərimov Ələkbər Mehdi oğlu**

**Məmmədov Rövşən Məmməd oğlu**

**Zeynalov Sahib Səfərəli oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Oktyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşez ilə görüşüb.

Ali Məclisin Sədri səfirin geniş tərkibdə muxtar respublikaya səfərini Fransa dövlətinin Naxçıvana marağı və diqqəti kimi dəyərləndirdi, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Fransa Respublikası arasında elm, təhsil və iqtisadi-ticarət sahəsindəki əlaqələrdən danışdı. Muxtar respublikanın 38 təhsil müəssisəsində Fransız dilinin tədris olunduğunu və Naxçıvan Dövlət Universitetində Fransız dili ixtisasının fəaliyyət göstərdiyini diqqətə çatdıran Ali Məclisin Sədri Azərbaycan-Fransa beynəlxalq ekspedisiyası tərəfindən muxtar respublikada aparılan tədqiqatların əhəmiyyətini vurğuladı, qarşılıqlı əlaqələrin davam etdiriləcəyinə əminliyini ifadə etdi.

Səmimi qəbula görə minnətdarlıq edən xanım Orelia Buşez Naxçıvanla tanışlığın onda dərin təəssürat yaratdığını diqqətə çatdırdı. Ölkələrimiz arasındakı dostluq münasibətlərinə toxunan səfir Fransa-Naxçıvan əlaqələrinin inkişafının və muxtar respublikada Fransız dilinin tədrisinin məmnunluq doğurduğunu bildirdi, əməkdaşlığın daha da genişləndiriləcəyini vurğuladı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İstilik sistemi olmayan müəssisələr lazımi mal-materiallarla təmin edilib

***Oktyabrın 19-da muxtar respublikanın istilik sistemi olmayan təhsil, səhiyyə və mədəniyyət müəssisələrinə 2017-2018-ci illərin payız-qış mövsümü üçün tələb olunan mal-materialın paylanılması təmin edilib.***



Xəbər verdiyimiz kimi, 2017-ci il avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib. Müşavirədə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin qarşısına bir sıra tapşırıqlar qoyulub. Verilən tapşırığa görə Maliyyə Nazirliyi istilik sistemi olmayan müəssisələrdə payız-qış mövsümündə tələb olunan mal-materialın alınması üçün lazımi maliyyə vəsaitinin ayrılmasını, həmçinin dövlət müəssisələrində enerji daşıyıcılarından istifadə zamanı borc qalığının yaranmamasını diqqətdə saxlamalıdır.

Müşavirədə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Təhsil, Səhiyyə, Mədəniyyət və Turizm nazirliklərinin Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan müəssisələrində 2017-2018-ci illərin payız-qış mövsümü üçün tələb olunan yanacağın, mal-materialların bölgüsü" təsdiq edilib. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən müəyyənləşdirilmiş bölgüyə uyğun olaraq mal-materialların alınması üçün lazımi vəsaitin ayrılması təmin olunub. Dünən adıçəkilən sahələrə aid müəssisələr onlar üçün ayrılmış mal-materialları təhvil alıblar.

**Səbuhi HƏSƏNOV**

## İnformasiya və rabitə xidmətləri sahəsində uğurlu nəticələr əldə olunub

Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi bu ilin 9 ayında da uğurla davam etdirilmişdir.

Ötən dövrdə Genişzolaqlı Asinxron Rəqəmli Abunəçi xətti texnologiyası vasitəsilə 3 min 46 yeni abunəçi internetlə təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin 8 şəhər və rayon Təhsil şöbələri və nazirliyə birbaşa tabe olan 4 təhsil müəssisəsinin İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə qoşulması üçün müvafiq şəbəkə qurulmuş və avadanlıqlar istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin internet səhifəsi yaradılaraq (*its.naxcivan.az*) serverdə yerləşdirilmişdir. Həmçinin "Naxçıvan İslam Mədəniyyəti – 2018" internet səhifəsinin hazırlanması işləri də başa çatdırılmışdır.

Şərur rayonunun Arpaçay və Çəmənli kəndlərinin hər birində bir ədəd 384 yerlik NGN tipli və Babək rayonunun Payız kəndində 384 nömrəli NGN tipli yeni avtomat telefon stansiyaları qurulmuşdur. Şərur rayonunun Arpaçay, Babək rayonunun Payız kəndlərində yeni poçt bölməsi yaradılmış, Çəmənli kəndindəki poçt bölməsi yeni binaya köçürülmüş, işçi kompüterlər MHM şəbəkəsinə qoşulmuş və digər lazımi avadanlıqlarla təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti arasında Ordubad rayonu ərazisində Yeni Nəsil Telefon Stansiyalarının qurulması ilə bağlı müqavilə imzalanmışdır. Muxtar respublika ərazisində köhnətipli avtomat telefon stansiyalarının yeni nəsil NGN tipli avtomat telefon stansiyalarla əvəz olunması lahiyəsi üzrə 4-cü mərhələyə start verilmişdir. Mövcud avtomat telefon stansiyalarının nömrə tutumlarının artırılması nəticəsində hesabat dövründə 1901 yeni telefon nömrəsi istismara verilmiş, 58 min 253 metr fiber-optik kabel xətti çəkilmiş, "Evədək optika" layihəsi çərçivəsində 50 fərdi mənzil fiber-optik kabel xətti ilə təmin edilmişdir.

Payız-qış mövsümünə hazırlıqla bağlı rayon və kənd avtomat telefon stansiyalarında olan generatorların vəziyyəti yoxlanmış, təmirə ehtiyacı olanlar təmir edilərək saz vəziyyətə gətirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikasında da meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.*

## Meliorasiya və su təsərrüfatı sahəsinin inkişafı diqqət mərkəzindədir



Son illər meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarma şəbəkələrinin genişləndirilməsi, su sistemlərində təmir-bərpa işlərinin görülməsi, içməli su təminatının yaxşılaşdırılması sahəsində kompleks tədbirlər görülmüşdür. Bu ilin 9 ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin tabe təşkilatları tərəfindən 194 kilometr beton və torpaq kanal, 353 kilometr ara arxlar, 33 kilometr kollektor lildən təmizlənmiş, 5 kilometr yeni açıq drenaj kanalı qazılmış, 2 kilometr yeni qapalı drenaj xətti, 53 kilometr suvarma boru xətti və 6 kilometr yeni içməli su xətti çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası ərazisində suvarılan torpaq sahələrinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, su itkisinin qarşısının alınması üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 400 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilərək 4050 metr əsas və 36 kilometr paylayıcı boru xətləri çəkilmişdir. Şəbəkə üzərində 2 tənzimləyici siyirtmə, müxtəlif diametrli 67 paylayıcı siyirtmə, 368 supaylayıcı hovuz, 368 hidrant quraşdırılmışdır.

Yaşayış məntəqələrini və əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Şərur rayonunun Arpaçay selovunda 6 kilometr, Babək rayonunun Naxçıvançay vadisində 7, Cəhriçay vadisində 7, Qahab selovunda isə 3 kilometr selə qarşı istiqamətləndirici bənd tikilmişdir. Babək rayonunun Payız kəndində yenidənqurma işləri ilə əlaqədar olaraq kəndin içərisindən keçən Cəhri çayının hər iki sahilində 1500 metr selə qarşı bənd çəkilmişdir.

"Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğunun tikintisi davam edir. Şərur rayonunda tutumu 7500 kubmetr olan 1 və hər birinin tutumu 10 min kubmetr olan 2 su anbarı izolyasiya olunmuş, ətrafı doldurulmuş və siyirtmə quyuları tikilmişdir. Layihə çərçivəsində Şərur rayonunda, ümumilikdə, 58 kilometr su xətti çəkilmiş, 1539 ev birləşməsi aparılmışdır. Şahbuz rayonunda Şahbuz şəhər çirkab sutəmizləyici qurğunun ətrafında 220 metr istinad divarı tikilmiş, hovuz ətrafında 180 metr drenaj xətti çəkilmişdir. Ordubad rayonunda isə 18 ədəd subartezian quyusu qazılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV:** ***Müdriklər dövlətlərin qüdrətini onun ordusunun qüdrəti ilə ölçürdülər. İtalyan filosofu və mütəfəkkiri Nikolo Makiavelli özünün məşhur "Hökmdar" əsərində göstərirdi ki, "bütün dövlətlərdə hakimiyyətin əsasını yaxşı qanunlar və yaxşı ordu təşkil edir". Ümummilli liderimiz Azərbaycana hər iki rəhbərliyi dövründə dövlət və ordu quruculuğu məsələlərini diqqətdə saxlamış, ordu quruculuğu sahəsində təxirəsalınmaz tədbirlər həyata keçirmişdir.***



*Jurnalistin qeydləri*

# Buluddağıdan toplardan "Sakarya" və "Smerc"lərə qədər

Yazıçı Aqil Abbasın ssenarisi əsasında çəkilən "Dolu" filmində bir epizod var:

Əsgərlərimiz düşmənlə meşəlik ərazidə qeyri-bərabər döyüşə girirlər. Erməni səngərlərində gizlənən tank və digər zirehli texnikalar biz tərəfə atəş aça-aça tez-tez mövqelərini dəyişirlər. Həmin an filmin əsas qəhrəmanları "Drakon" və "Pələng" arasındakı dialoq diqqətdən yayınmır: "Bu BTR-lərdən 4-5-i bizdə olsaydı, Əsgəranı çoxdan şumlamışdıq".

***Bu gün gərək***
***Hər anımız VƏTƏN! – desin***

Bəli, ötən əsrin 90-cı illərində vətənpərvərliyimiz, milli ruhumuz, düşmənə nifrətimiz aşıbdaşsa da, vahid komandanlıqda bir-



ləşən ordumuz, silah-sursat və texnikamız yox idi. Həmin vaxt Naxçıvanda yaşananlar heç də Dağlıq Qarabağ cəbhəsində yaşananlardan geri qalmırdı. İşğalçı Ermənistan sərhədboyu hücuma keçərək qədim diyarı işğal və məhv etmək üçün bütün qüvvələrini səfərbər etmişdi. Lakin yenicə Moskvadan Naxçıvana qayıdan ulu öndər Heydər Əliyev bütün naxçıvanlıları öz ətrafında birləşdirdi. Əhalinin ümummilli liderə böyük etimad və inamı hər şeyi kökündən dəyişdi. İnsanlar süngü-bıçaqla, ov tüfəngi ilə doğma torpağın müdafiəsinə qalxdılar. Ulu öndər Heydər Əliyev Naxçıvanı, Naxçıvan da Onu qorudu.

70 il ürəyimizdə dalğalanan üçrəngli bayrağımız başımızın üstünə qalxdı. Dövlət müstəqilliyimizin də ilk addımları atıldı və həmişə arzusunda olduğumuz ilk milli ordu qurumumuz – Naxçıvanda ilk milli hərbi hissə yaradıldı. Və o zaman bizə böyük ruh verən ilk hərbi parad da məhz Naxçıvanda keçirildi. Canlı qüvvə və texnika sarıdan çox zəif olsaq da, bu paradda milli ruhumuz bir daha coşmuşdu. "Ordumuz olsa idi, ermənilər bir qarış torpağımızı da işğal edə bilməzdi" prinsipinin nə qədər məntiqli olduğuna bir daha şahidlik etmişdik...

***Qılıncımız, qalxanımız***
***VƏTƏN! – desin***

Düz 25 il sonra səhər tezdən, tarixi bir gündə – 18 oktyabr – Dövlət Müstəqilliyi Günündə yuxudan qalxıb böyük həyəcanla hazırlaşıram. Çünki bir azdan vaxtilə ulu öndərin Naxçıvanda yaratdığı ilk milli hərbi hissənin 25-ci ildönümü qeyd ediləcək, möhtəşəm hərbi parad keçiriləcəkdi.

Budur, Naxçıvan şəhərinin Heydər Əliyev prospektindən Salvartı zirvəsinə uzanan yol sanki Naxçıvan dağlarının əzəmətindən, vüqarından güc alaraq dalğalanır. Böyük izdihamın gözü sıra meydanında dayanan aslan ürəkli əsgər və zabitlərimizdədi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov, Azərbaycan Respublikasının müdafiə naziri Zakir Həsənov zabit və əsgərlərimizi hərarətlə salamlayır, onları əlamətdar bayramlar münasibətilə təbrik edir. Çıxışlardan sonra keçirilən təlimlərdə döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə artıran şəxsi heyət nizami addımlarla irəlilədikcə ayaq səsləri ürəklərimizin səsinə qoşulur. Sanki o an ətrafdakı hər kəsin ürəyindən əsgər olmaq, səngərdə dayanmaq keçir.



Heydər Əliyev adına Hərbi Liseyin kursantları, xüsusi təyinatlılar, kəşfiyyatçılar, sərhədçilər, motoatıcılar, rabitəçilər, qorxmaz şahinlərimiz bir-bir bizi salamlayır...

Buluddağıdan topların, ov silahlarının dövrü çoxdan bitib... Budur, Əlahiddə Ümumqoşun Ordunun arsenalında olan ən müasir silah və texnikalar gözümüzün önündən keçir. Onların səsi Ağrıdağdan Haçadağa, Haçadağdan Murova qədər yayılıb. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordusunun birləşmə və hissələrinin 2 min nəfərə yaxın şəxsi heyəti, 160-dan çox hərbi texnika və silah sistemləri, o cümlədən ondan artıq döyüş vertolyotu və təyyarəsi hərbi paradı izləyən minlərlə muxtar respublika sakininin qəlbini riqqətə gətirirdi.

Ordumuzun mexanikləşdirilmiş, motoatıcı, xüsusi təyinatlı, kəşfiyyat, dağ atıcı, tank, reaktiv artilleriya, hava hücumundan müdafiə və rabitə bölmələrinin, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının şəxsi heyətləri nizami addımlarla yeri-göyü titrədirdilər.

Nə yoxdu, tank əleyhinə idarə olunan "SPAYK" raket kompleksləri, Azərbaycanda istehsal olunan və beynəlxalq sərgilərdə böyük maraqla qarşılanan "Marauder" zirehli döyüş maşınları, pilotsuz uçuş aparatları, reaktiv artilleriya kompleksləri, minaatanlar, tank əleyhinə toplar, "Qrad"lar, "Sakarya", "Qasırğa", "Smerc" yaylım atəşli reaktiv sistemləri, döyüş maşınları, zenit raket kompleksləri, zirehli transportyorlar, özüyeriyən tank əleyhinə komplekslər, müasir tanklar və özüyeriyən artilleriya qurğuları...

"SU-25" döyüş təyyarələri, "Mİ-17-1V" və "Mİ-35M" vertolyotları ulu Naxçıvan səmasını fəth edərək Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikadakı birləşmə və hissələrinin güc və qüdrətini bir daha nümayiş etdirdilər.

Həmin gün həm də Əlahiddə Ümumqoşun Ordunun yeni Təlim-Tədris Mərkəzinin istifadəyə verilməsi ilə əlamətdar oldu.

Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi kimi: ***"Naxçıvan ordusu bu gün güclü ordudur və Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir".***

***Ölənlərin əvəzinə***
***Qalanımız VƏTƏN! – desin***







Deyirlər, torpaq su ilə suvarılanda palçıq, qan ilə suvarılanda VƏTƏN olur. Bu gün üstündə gəzdiyimiz bu Vətəni öz qanları bahasına qoruyan şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bu torpağı, bu Vətəni bir də ona görə sevirik ki, o, bizə şəhidlərimizin əmanətidir. Biz onlarla yaşayırıq, biz onlarla yaşadırıq, biz onlarla yaşlanırıq... Böyük türk şairi Məhmət Akifin təbirincə desək:

*Basdığın yerləri "torpaq"*
*deyərək keçmə, tanı:*
*Düşün altındakı minlərlə*
*kəfənsiz yatanı!!!*

Müdriklər deyirlər ki, boş zaman yoxdu, boşa keçirilmiş zaman var. Bugünkü parad bir daha sübut etdi ki, Naxçıvanda ötən 25 ilin bir anı belə, boşa keçirilməyib, qədim diyar başdan-başa tikilib-qurulmaqla, yenilənməklə bərabər, həm də gücünə güc qatıb. Əlincə yenilməzliyi qazanıb, tarixinin ən mübariz ordusuna sahib olub.

Düzdür, biz həmişə qurub-yaratmışıq, tikmişik, amma dəfələrlə işğalçılar Naxçıvanı yerlə yeksan edib, külə döndəriblər...

Deyirlər ki, QƏLƏBƏ – qələbə mənimdir, – deyib Vətən üçün qan tökənindir.

İnanın, paradda şəxsi heyətə və döyüş texnikalarına "dur" komandası verilməsəydi, onlar qədim şəhərimizə – İrəvana qədər gedib çıxardılar. Bax budur iş, budur yaratmaq eşqi, budur vətənpərvərliyin Naxçıvan nümunəsi.

***VƏTƏN! – desin***
***Qəlbimizin hər duyğusu,***
***hər vurğusu VƏTƏN! – desin***

Az qalıb, çox az qalıb. Bu gün parada çıxan zirehli texnikaların səsi Naxçıvana çox yaxın olan Şuşada, Kəlbəcərdə, Xankəndidə, Laçında da eşidildi. Çox keçməz, özləri də orda görünərlər. Təki qəlbimizin hər vurğusu, hər duyğusu Vətən desin. Və bir də hər birimiz özümüzə əsgər forması alıb onu geyinəcəyimiz günü səbirsizliklə gözləyək...

***Fərqi yoxdur, harda olaq,***
***Zamanımız, məkanımız***
***VƏTƏN! – desin...***



**Sahil TAHİRLİ**
**jurnalist**

# Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin III konfransı keçirilib

***Oktyabrın 19-da Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin III konfransı keçirilib.***

Konfransa Yazıçılar Birliyinin üzvü Akif İmanlı sədrlik edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin üzvlərinə Ali Məclis Sədrinin salamlarını çatdırmış, birliyin III konfransına öz işində uğurlar arzulayaraq demişdir: Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada Yazıçılar Birliyinin fəaliyyəti, o cümlədən ədəbiyyatımızın və mədəniyyətimizin inkişafı üçün əlverişli şərait yaradılmışdır. Birliyin 2012-ci ildə keçirilən konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Yazıçılar Birliyinə muxtar respublikada ədəbi prosesin və bədii yaradıcılıq işinin gücləndirilməsi, bədii tərcümənin, uşaq ədəbiyyatının və dramaturgiyanın inkişaf etdirilməsi, eləcə də kitab müzakirələrinin təşkili ilə bağlı tapşırıqlar vermişdir. Ötən 5 ildə Yazıçılar Birliyi bu istiqamətdə fəaliyyətini qurmağa çalışmış, bir sıra işlər görülmüş, tədbirlər keçirilmişdir. Lakin etiraf etməliyik ki, görülən işlər Ali Məclis Sədrinin qarşıya qoyduğu tələblər səviyyəsində deyil. Yazıçılar Birliyinin yeni seçiləcək İdarə Heyəti işdə dönüş yaratmalı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qarşıya qoyduğu vəzifələr əsas fəaliyyət istiqaməti olmalı, bununla bağlı Tədbirlər Planı hazırlanaraq icra edilməlidir.

Yazıçılar Birliyinin İdarə Heyətinin iclasları mövcud vəziyyəti əks etdirməli, birliyin üzvlərinin, digər ədəbi qüvvələrin əsərlərinin müzakirə və təhlilləri aparılmalı, ədəbi tənqid, bütövlükdə, ədəbi proses diqqətdə saxlanılmalıdır. Muxtar respublikada yaradıcı insanların fəaliyyəti üçün imkanlar böyükdür. Bunun nəticəsidir ki, çap olunmuş əsərlərin sayı xeyli artıb. Lakin bu əsərlərə diqqət yetirdikdə aydın görünür ki, yazıçı, şair və dramaturqlarımız mövzu seçimində çətinlik çəkirlər. Dəfələrlə deyilməsinə baxmayaraq, bu sahədə problemlər aradan qaldırılmayıb. Naxçıvan Muxtar Respublikasının Yazıçılar Birliyi yaradıcı insanlara, xüsusən də gənclərə köməklik göstərməli, onların yaradıcılığını istiqamətləndirməli, ədəbiyyatda vətənpərvərlik mövzusuna geniş yer verilməlidir. Kitabxanalarda və mətbuat orqanlarında yeni nəşr olunan əsərlərin təqdimatı keçirilməli, imza və kitab müzakirəsi günləri, yazıçılarla görüşlər təşkil olunmalıdır.



Qeyd olunmuşdur ki, dünya klassiklərinin əsərlərindən tərcümə sahəsində müəyyən işlər görülüb. Lakin klassik şair və yazıçılarımızın, eləcə də muxtar respublikanın müasir ədəbi qüvvələrinin əsərlərinin xarici dillərə tərcüməsi sahəsində fəaliyyət hiss olunmur. Yazıçılar Birliyi Bədii Tərcümə Mərkəzinin fəaliyyətini gücləndirməli, tərcümə işini günün tələbləri səviyyəsində qurmalıdır. Etiraf edək ki, Naxçıvan ədəbi mühitində uşaqlar üçün yazılan əsərlər azlıq təşkil edir. Digər tərəfdən çap olunan kitablar çox vaxt uşaqların maraq dünyasına uyğun gəlmir. Uşaqlar üçün dram əsərlərinin yazılmasında da çatışmazlıqlar vardır. Bunun nəticəsində muxtar respublikanın uşaq teatrlarının dram əsərlərinə olan tələbatı tam şəkildə ödənilmir. Bu acınacaqlı vəziyyət tək uşaq dramaturgiyasına yox, bütövlükdə dramaturgiyaya aiddir. Naxçıvan Dövlət Musiqili Dram Teatrının hər il tərtib olunan repertuarında muxtar respublika dramaturqlarının əsərlərinin azlıq təşkil etməsi bizi düşündürməlidir. Bu gün muxtar respublika rəhbərinin himayəsi ilə tariximizə aid ciddi elmi-tədqiqat materialları nəşr olunur. Muxtar respublika tarixinin qaranlıq səhifələrinə aydınlıq gətirilir. Bunun müqabilində Yazıçılar Birliyi üzvlərinin tariximizi əks etdirən dram və nəşr əsərlərinin yazılmasına laqeyd münasibəti başa düşülmür. Yazıçılar Birliyi muxtar respublikada uşaq ədəbiyyatı, eləcə də dramaturgiyanın və nəşrin inkişafı istiqamətində ciddi tədbirlər görməlidir.

Ali Məclis Aparatının rəhbəri demişdir ki, təşkilatçılıq işi gücləndirilməli, elm və ali təhsil müəssisələri, o cümlədən kütləvi informasiya vasitələri ilə yaradıcılıq əlaqələri davamlı xarakter almalıdır. Yazıçılar Birliyinin Gənclər Təşkilatı gənclərlə işi gücləndirməli, istedadlı gənclərin üzə çıxarılması istiqamətində tədbirlər görməli, onların yaradıcılığını istiqamətləndirməlidir. Muxtar respublikada ictimai təşkilatlar əhatə etdikləri sahələr üzrə yaradıcılıq müsabiqələri keçirirlər. Yazıçılar Birliyi də bu sahədə fəaliyyətini gücləndirməli, gənc istedadların aşkara çıxarılmasına nail olmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı" təsdiq edilib. Bu, bir daha sübut edir ki, Naxçıvanda kitab mütaliəsinin inkişaf etdirilməsinə xüsusi dövlət qayğısı var. Yazıçılar Birliyi də bu istiqamətdə fəaliyyətini gücləndirməli, müzakirələr keçirilməli, təhlillər aparılmalıdır. Həmçinin birliyin üzvləri tarixi keçmişimizlə, milli dəyərlərimizlə bağlı ədəbiyyatların gənc nəslə çatdırılmasını, onlarda mütaliə mədəniyyətinin artırılmasını diqqətdə saxlamalıdırlar.

Vurğulanmışdır ki, Yazıçılar Birliyinin Mətbuat Şurası ilə əlaqəsi zəifdir. Bunun nəticəsidir ki, ədəbi mühit mətbuatdan uzaqlaşıb. Muxtar respublika mətbuatında ədəbi nümunələrə az rast gəlinir. Bu səbəbdən də qəzetlər oxunaqlı olmur. Yazıçılar Birliyi Mətbuat Şurası ilə əlaqələri gücləndirməli, sanballı və günlə səsləşən ədəbi nümunələrin, şair və yazıçıların publisistik çıxışlarının mətbuatda dərc edilməsinə nail olmalıdır.

Yazıçılar Birliyinin muxtar respublikanın digər yaradıcılıq təşkilatları, xüsusilə Bəstəkarlar Təşkilatı ilə də yaradıcılıq əlaqələri təmin edilməli, Naxçıvanı tərənnüm edən və müasir dövrlə səsləşən sanballı mahnılar ortaya qoyulmalıdır. Bu gün muxtar respublika rəhbərinin himayəsi ilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi müasir çap texnologiyaları ilə təchiz olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən nəşriyyatda kitab çapı ilə əlaqədar qiymətlərə də yenidən baxılmış, çap məhsullarının qiyməti xeyli aşağı salınmışdır. Buna baxmayaraq, ziyalılarımızın nəşriyyatla əlaqələri zəifdir. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi muxtar respublikada yaşayıb-yaradan yazıçı və şairlərin "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi ilə əlaqələrini gücləndirməlidir.

Yazılan hər bir əsər, nəşr olunan hər bir kitab bu günümüzün tarixidir. Bu baxımdan muxtar respublikanın müasir tarixinə, aparılan genişmiqyaslı quruculuq tədbirlərinə həsr olunmuş əsərlərin yazılmasına diqqət artırılmalıdır. Muxtar respublikanın kəndlərində yeni kənd mərkəzləri tikilmiş, zəngin fonda malik olan kitabxanalar və müasir iclas zalları istifadəyə verilmişdir. Lakin Yazıçılar Birliyi bu imkanlardan lazımınca faydalanmır. Birlik üzvlərinin kənd mərkəzlərində oxucularla görüşləri keçirilməli, kitab müzakirələri aparılmalıdır. Qarşıdakı 5 il ərzində Yazıçılar Birliyinin yeni tərkibi ciddi çalışmalı, Birliyin Nizamnamə tələbləri və buradan irəli gələn vəzifələr diqqətdə olmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Yazıçılar Birliyinin, bütövlükdə yaradıcı ziyalılarımızın fəaliyyətinə mühüm əhəmiyyət verərək qarşıda konkret vəzifələr qoymuş və demişdir: ***"Naxçıvan Muxtar Respublikasında yaradıcı ziyalıların öz imkanlarını ortaya qoymaları üçün hər cür şərait yaradılmışdır. Bu şəraitdən səmərəli istifadə olunmalı, oxucuya, ictimai fikrə təsir göstərən, xalqımızın milli maraqlarına cavab verən əsərlər yaradılmalı, bədii əsərlər günümüzün salnaməsinə çevrilməlidir".***

Əli Həsənov muxtar respublika rəhbərinin qarşıya qoyduğu vəzifələrin icrasında Yazıçılar Birliyinin üzvlərinə, bütün yaradıcı ziyalılara uğurlar arzulamışdır.

Sonra Yazıçılar Birliyinin sədri Asim Əliyevin hesabat məruzəsi dinlənilib. Qeyd olunub ki, muxtar respublikada yaşayıb-yaradan şair və yazıçılara hərtərəfli diqqət və qayğı göstərir. Ötən beş il ərzində Yazıçılar Birliyi tərəfindən 12 ədəbi almanax hazırlanıb və bu almanaxlar Ali Məclis Sədrinin qayğısı ilə çap olunaraq oxucuların ixtiyarına verilib, "Naxçıvan" jurnalının bir neçə nömrəsi görkəmli şair və yazıçıların əsərlərinə, onlar haqqında yazılan məqalələrə həsr olunub. Asim Əliyev Yazıçılar Birliyinin üzvləri adından göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib, göstərilən bu qayğının müqabilində fəaliyyətlərini gücləndirəcəklərinə, muxtar respublikamızda nəsr, dramaturgiya, uşaq ədəbiyyatı, tərcümə, bədii publisistika sahəsindəki nöqsanların tezliklə aradan qaldırılacağına, teatrlarımızın sanballı əsərlərlə zənginləşdiriləcəyinə, milli dəyərlərimizin, tarixi abidələrimizin bədii əsərlərdə daha geniş təbliğ ediləcəyinə söz vermişdir.

Hesabat məruzəsi ətrafında müzakirələrdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin üzvləri İbrahim Yusifovun və Elxan Məmmədovun çıxışları dinlənilib.

Sonra konfransda 5 nəfərdən ibarət idarə heyəti seçilib. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin üzvləri Qafar Qənbərov və Fərəc Fərəcov Asim Əliyevin yenidən Yazıçılar Birliyinin sədrliyinə namizədliyini irəli sürüblər. Təklif səsə qoyulub və qəbul olunub.

Konfransda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin Nəzarət-Təftiş Komissiyasının da yeni tərkibi müəyyənləşib. Komissiyanın üzvlüyünə namizədlər səsə qoyulub və qəbul olunub. İbrahim Yusifov Nəzarət-Təftiş Komissiyasının sədri seçilib.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin III konfransının qərar layihəsi oxunub və qəbul olunub.

Bununla da, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin III konfransı öz işini başa çatdırıb.

**"Şərq qapısı"**

***20 oktyabr energetika işçilərinin peşə bayramıdır***

# Muxtar respublikanın energetika sistemi davamlı inkişaf mərhələsinə yüksəlib

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli Sərəncamına əsasən hər il oktyabrın 20-si ölkəmizdə energetika sahəsində çalışanların peşə bayramı günü kimi qeyd olunur.***

Azərbaycanda elektroenergetikanın inkişafına ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən başlanmış, enerji sisteminin təkmilləşdirilməsi sahəsində mühüm tədbirlər görülmüşdür. Ümummilli liderin səyləri və təşkilatçılığı sayəsində hər birinin gücü 300 meqavatlıq 8 blokdan ibarət olan Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının istifadəyə verilməsi, həmin dövrdə İran İslam Respublikası ilə birgə tikilən 22 meqavatlıq Araz SES, 330 kilovoltluq Mingəçevir-Abşeron hava elektrik verilişi xətləri, yeni transformator yarımstansiyaları enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə vermişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində blokada şəraitində yaşayan Naxçıvan ciddi enerji böhranı ilə üzləşən zaman ulu öndərin apardığı danışıqlar nəticəsində 1993-cü ildə İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından isə 63 meqavat elektrik enerjisi nəqlinə başlanılmışdır. Bu dövrdən başlayaraq muxtar respublikada müxtəlif gücə malik olan transformator yarımstansiyaları quraşdırılmış, yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilmiş, idxal olunan elektrik enerjisinin itkisiz paylanması, avadanlıqların yüklənməsinin qarşısını almaq və enerji təchizatının etibarlılığını yüksəltmək məqsədilə ardıcıl tədbirlər görülmüşdür. Müstəqillik illərində də ümummilli liderimiz ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunmasını diqqət mərkəzində saxlamış, bu sahənin maddi-texniki təchizatı xeyli gücləndirilmişdir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın digər sahələri kimi, elektrik enerjisi üzrə də proqramlar hazırlanaraq uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının həyata keçirilməsi iqtisadiyyatın hərəkətverici qüvvəsi olan elektrik enerjisi sistemində də inkişafı təmin etmişdir. Hazırda muxtar respublikada bu sahədə ardıcıl tədbirlər görülür. 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qaz ilə işləmə rejiminə keçirilmiş, 220 kilovoltluq "Babək" yarımstansiyasında yenidənqurma işləri aparılmışdır. Həmin il ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası və Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası istismara verilmişdir. 2010-cu ildə isə 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyasının, 2014-cü ildə Arpaçay Su Anbarı üzərində 20,5 və 1,4 meqavat gücündə 2 su elektrik stansiyasının, 2015-ci ildə 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və bu il stansiyanın gücünün daha 2 meqavat artırılması Naxçıvanın etibarlı enerji təminatına səbəb olmuşdur. Bütün bunların nəticəsidir ki, bir zamanlar yalnız idxal hesabına elektrik enerjisinə olan tələbatını qismən ödəyən Naxçıvanda bu gün daxili istehsal hesabına ən ucqar dağ kəndi belə, fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunur. Hazırda muxtar respublikadakı 8 elektrik stansiyasının ümumi gücü 239,4 meqavat təşkil edir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada günəş və su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ümumi istehsalın 60 faizindən çoxunu təşkil edir.

Enerji təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlər əhalinin tələbatını ödəməklə yanaşı, həm də Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın davamlı inkişafını təmin etmişdir. Buna görə də enerji təchizatının yaxşılaşdırılması və müasirləşdirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada mövcud elektrik stansiyalarının, yarımstansiya və elektrik verilişi avadanlıqlarının təmiri ilə yanaşı, yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi sahəsində də mühüm işlər görülür. Hazırda Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Culfa rayonunda isə gələcəkdə külək elektrik stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılması üçün ölçmə işləri aparılır. Həmçinin gücü 14 meqavat olan Tivi Su Elektrik Stansiyasının və 3,5 meqavat olan Qazançı Su Elektrik Stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılması hazırlanır.

Muxtar respublikada istehsal olunan elektrik enerjisinin istehlakçılara fasiləsiz və keyfiyyətli çatdırılması məqsədilə yeni transformator yarımstansiyaları tikilir, mövcud olanlar yenidən qurulur. Son illər "Xal-xal", "Koroğlu", "Xalçaçılıq", "Şərur", "Naxçıvan", "Ordubad" və "Qıvraq" transformator yarımstansiyaları müasir şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Həmçinin bu il Şahbuz Rayon Elektrik Şəbəkəsi üçün yeni inzibati idarə binası və yeni 35/10 kilovoltluq transformator yarımstansiyasının açılışı olmuşdur.

Bu gün elektroenergetika sahəsində ixtisaslı kadr hazırlığına da xüsusi diqqət yetirilir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada elektrik stansiyalarının tikintisi və yenidən qurulması, elektrik təchizatı avadanlıqlarının quraşdırılması, bütövlükdə, yerli mütəxəssislər tərəfindən həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı bu sahədə mühüm nailiyyətlərin əldə olunmasına şərait yaradır. Gənclərin istehsal və iş sahələrinə cəlbi onların təcrübi biliklərinin möhkəmləndirilməsinə və peşəkar kadr kimi yetişməsinə imkan verir.

Muxtar respublikanın energetikləri elektrik enerjisindən səmərəli istifadə olunması, enerji itkisinin minimum səviyyədə saxlanılması və sərfiyyata uyğun enerji dəyərinin ödənişinin təmin olunmasında səylə çalışırlar. Hazırda Naxçıvan şəhərində smart-karttipli sayğacların quraşdırılması davam etdirilir. Həmçinin əməkdaşlar tərəfindən elektrik enerjisindən səmərəli istifadə edilməsi, israfçılığın, elektrik enerjisindən qanunsuz və sayğacdankənar istifadə edilməsinin qarşısının alınması məqsədilə mütəmadi reydlər keçirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin kollektivi yaşayış məntəqələrinin, istehsal və xidmət sahələrinin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchizatını daim diqqət mərkəzində saxlayır. Energetika işçiləri bundan sonra da muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfələrini verəcəklər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin mətbuat xidməti***

*Xalqımıza məxsus məişət adət-ənənələrindən biri də qışa ərzaq tədarükünün görülməsidir. Əvvəllər qış tədarükü bir qədər çətin və məşəqqətli olardı. Xüsusən qışa un tədarükü görülərdi. Bu tədarük bir neçə mərhələdən keçərdi. Əkin-biçindən əldə edilən taxıl əvvəlcə yuyulardı. Bu, çox ağır və vaxt aparan proses idi. Qohum-qonşudan palaz toplayıb üstünə buğda sərər, 2-3 gün ərzində qurudardılar. Buğdanı hissə-hissə teşt və ya məcməyilərə tökər, başqa qarışıqlardan təmizləyərdilər. Bundan sonrakı iş isə buğdanı üyütmək idi. Kəndlərdə olan su dəyirmanlarında növbə tutular, hər kəs ailəsi üçün un ehtiyatı görərdi.*

*Adət-ənənələrimiz*

## Xalqımızın qışa tədarüklə bağlı qədim və zəngin ənənələri bu gün də yaşadılır



Həmin dövrdə bostan-tərəvəz məhsulları indiki kimi konservləşdirilməzdi. Ona görə də yalnız qurutmaqla qış tədarükü görülərdi. Lobya, badımcan doğranaraq, pomidor isə bütöv halda qurudulardı.

Qış hazırlıqları içərisində yavanlıqlar da xüsusi yer tutur. Bu sahədə də erkən yazdan müxtəlif işlər görülərdi. Pendir, şor, yağ ehtiyatı əsas qida məhsulları hesab edilərdi. Aprel-may ayları südün ən bol vaxtı sayılır. Bu zaman əldə edilən yağa gül (çiçək) yağı deyərlər. Çünki bu vaxtlar heyvanlar təzə-tər otlarla qidalanırlar. Qoyunlar iyulun axırına, keçilər isə sentyabrın əvvəlinə, bəzən də axırına qədər sağılır. Dəymiş otlarla bəslənən mal-heyvanın südü yağlı olduğu üçün bu mövsümdə tutulan pendir daha dadlı olur.

Quru məhsullar – noxud, mərcimək, lobya, yarma, əriştə və sair dağarcıqlarda saxlanılardı. Dağarcıq qoyun və keçi dərisindən olardı. Eymə və tuluğa nisbətən dağarcıq daha asan başa gəlirdi. Bunların hazırlanması üçün heyvanın dərisi "diri", yəni arxa ayaqdan dəri açılıb, corab kimi çevrilərək bütün çıxarılardı. Dağarcığın dərisi aşılanmazdı.

Eymə hazırlamaq üçün, əsasən, "qızılı heyvan" (Naxçıvan yerli balbas sortu) və ya sibir dərisi seçilərdi. Eymə dərinin arpa unu, duz və zəy vasitəsilə aşılanıb daha yumşaq şəklə salınması yolu ilə hazırlanardı. Ona qatıq yığılar və bu, "qara qatıq" adlanardı. Eymə bərk əşyalar üzərinə qoyulardı ki, sızan su altını palçıq etməsin. Eymə qatığı "dəymələdir", əks halda yağ yaxşı ayrılmaz. Vaxtaşırı eymə qatığı çalxanar, yağı götürüldükdən sonra ayran çürüdülüb, şor, qurut hazırlanar, ya da ayran kimi istifadə olunardı.

Qış ərzağının biri də qurutdur. Qışda qovurma ilə hazırlanan qurut xəngəli Naxçıvan mətbəxinin sevilən yeməklərindəndir.

Əsasən, avqust ayında yarma, əriştə hazırlığına başlanardı. Yarma yumşaq ağ buğdadan hazırlanar, buğdanı qaynadıb qurudar, sonra isə kirkirədə (əl dəyirmanı, əl daşı və sair) üyüdüb xırdalayardılar. Əriştənin hazırlanması bir qədər çətin olduğu üçün qadınlar iməci toplayardılar. İşin tez olması üçün ən azı dörd nəfər iştirak edərdi. Xəmiri yayan, kəsən, dəstəkçi, ipə sərən. Vaxtilə əriştə bıçaqla kəsilərdi. Əriştəni kəsən çalışardı ki, onlar eyni ölçüdə olsun. Bu iş xüsusi səriştə tələb etdiyi üçün "özünə umac ova bilmir, özgəyə əriştə kəsir" məsəli də elə buradan yaranmışdır. Kəsilən əriştə duzlanaraq sacda qovurulur, qablara doldurularaq quru, havalı yerlərdə saxlanılır.

Avqust ayında kənd təsərrüfatında da bəzi işlər görülərdi. Yayda biçilən taxılın küləşini "quyruq doğana" qədər (5-6 avqust tarixlərində) quru olduğu üçün yığışdırmazdılar. Bu dövrdən küləş götürülər, şum işlərinə başlanardı. Sürülən torpaqlar gündə qovurular, alaq otları məhv olardı.

Yorğan-döşək tökülüb, yunu yenidən çırpılar, lazım olarsa, yeniləri salınardı. Yorğanlar, əsasən, bu zaman qırxılan quzu yunundan – güzəmdən düzəldilərdi.Təsərrüfatda görüləcək digər işlər azaldığı üçün qırxılan yunları əyirər, kələfləyib boyayardılar. İplərin boyanmasında müxtəlif bitkilərdən istifadə edilərdi. Qırmızı rəngi boyaqotundan, sarı rəngi zirinc kökündən, tünd-qəhvəyi rəngi cəviz yarpağından və sairdən hazırlayardılar.

Sentyabr ayında, əsasən, yer hanası qurular, cecim, palaz toxuyardılar. Yer hanası, adından da göründüyü kimi, yerdə uzadılardı. Hananın eni 60-70 santimetr, uzunluğu 9-12 metr olardı. Toxunduqdan sonra parça kəsilib, ən azı 3 ədəd yan-yana tikilərdi. Yer hanasında bir adam aşırma oturub toxuyardı. Hana ləvazimatları içərisində ağacdan düzəldilmiş üçayaq (çatma) toxucunu günəşdən qoruyardı. Divar hanasından fərqli olaraq toxunan arğacları "qılınc" adlanan taxta ilə döyüb bərkidərdilər. Qılınc 0,8-5 metr uzunluğunda, ipdöyən tərəfi nisbətən itilənmiş şumal taxtadır.

Oktyabr ayında bəzi meyvələr, üzüm dərilib asılardı. Üzüm, əsasən, milaxlarda asılırdı. Milağı düzəltmək üçün el arasında atpıtrağı kimi tanınan bitkinin qurusundan istifadə edilir. Yaxşı şəraitdə 1 metrdən artıq qalxan bu bitkinin şaxələnən budaqları yüngül olmaqla yanaşı, çox yük götürür. Sentyabr-oktyabr aylarında üzümdən mövüc, kişmiş hazırlanır.

Alma-armudu çox zaman evdə böyük kisələrə (xarallara) doldurulmuş buğdanın içərisində saxlayardılar. "Almanı atdım xarala, qaldı saralasarala" mahnısının yaranması da, yəqin ki, bununla bağlıdır. Onu da qeyd edək ki, o vaxtlar toyu ancaq payızda edərdilər. Ona görə də almanı xarala qoyan nişanlı qız həsrətlə toyunu gözləyərdi. Toyu payızda edərdilər ki, həm toy edən ailələr, həm də əhali toya qədər məhsulunu toplasın, artığını satıb pul əldə etsin.

Oktyabr ayında taxıl səpininə də başlanardı. Bir el məsəlində deyilir ki, "durna gəldi çıx şuma, durna getdi çıx tuma". Burada yazda durnalar gələn zaman yaz şumuna, payızda isə səpinə başlanmasına işarədir. Bir çox heyvanlar və quşlar soyuq və istinin başlamasını əvvəlcədən duyurlar. Belə bir məsəl vardır: "Suyu kəlin dırnağına verərlər". Səpilən toxum dərhal suvarılmalıdır ki, toxumu quş, qarışqa daşımasın. Ona görə də dəmyə əkinlərini bir qədər gec səpirlər.

Noyabr ayında son qış tədarükü olan qovurma qovurulur. Qovurma inək, qoyun, keçi, ev quşlarının ətindən hazırlanır. Bunun üçün qoyun ətinə daha çox üstünlük verilərdi. Təcrübəli adamlar övəc (3 yaşından yuxarı qoyun) ətini daha yaxşı hesab edirlər. Ət qovurulan zaman yaxın qohumlardan bir neçəsi ciyərə qonaq çağırılardı. Qovurmanın suyu müxtəlif kəndlərdə "təngov", "işgənə", "cığatay" adlanır. Təngovda bir qab içinə 2-3 tikə qovurulmuş ət qoyularaq qonşulara və qohumlara paylanır. Qovurma saxsı və ya emallı qaba yığılır, yağı üzərinə tökülür. Yağ qovurmanın üzərinə çıxmalıdır (basmalıdır), əks halda yağsız ət iylənər.

Qışa hazırlıq işlərindən biri də yanacaq tədarüküdür. Əvvəllər evləri isitmək, çörək və xörək bişirmək üçün müxtəlif yanacaq növlərindən və istilik qurğularından istifadə edilər, bunun üçün divarda buxarı düzəldilərdi. Açıq ocaq sonradan hörgüdə boru şəklində damın üzərinə qədər hörülərdi.

Evləri isitmək, çörək, bəzən xörək bişirmək üçün təndirlərdən istifadə edilərdi. Evin ortasında olan təndir yandırılar, çölməkdə olan xörəyin ağzı kip bağlanar, şişlə təndirin içərisinə qoyulardı. Lazım gəldikdə çörək yapılardı. Təndirin odu söndükdən sonra üzərinə kürsü qoyulardı. Kürsü ailənin sayına görə düzəldilmiş, nisbətən alçaq stoldur. Stolun üzərinə kürsü yorğanı salınar, böyük cecim, palaz atılardı. Bu cür təndirlər, əsasən, "qaradam" adlanan böyük otaqlarda olardı. Bu otaqların pəncərəsi olmazdı. Buraya işıq üstdəki bacadan düşər, tüstü də həmin bacadan çıxardı.

Digər otaqlarda divarlar qaralmasın deyə, kiçik çalalar qazılar, içərisinə hazır köz tökülərdi. Arxeoloji abidələrdə hələ Eneolit dövründə evlərin ortasında təndir olduğu təsdiqlənir.

Qışa ərzaq tədarükü ənənələrimizlə bağlı Babək rayonunun Sirab kəndində yaşayan 90 yaşlı Dilbər Əliyeva ilə həmsöhbət olduq. "Düzdür, indi bir çoxları həmin məhsulları dükandan almağa üstünlük verir, ancaq ev şəraitində hazırlanan nemətin yerini heç nə vermir", – deyən Dilbər nənə bildirdi ki, əvvəllər qışa hazırlıq çox çətin idi: "Bilmirdik qışda isinmək üçün odun tədarük edək, ya qidalanmaq üçün banka-balon bağlayıb, ot-alaf qurudaq. İndi, şükürlər olsun, daimi yanacağımız var. O sarıdan rahatıq. Ərzaq tədarükünü də əvvəlki kimi aparırıq. Amma rahat və qayğısız formada. İndi qışda da təzə, həm də dadlı meyvə-tərəvəz, ət və ət məhsulları tapılır. Buna baxmayaraq, qış tədarükü el adəti kimi bu gün də kəndlərimizdə yaşadılır".

Dilbər nənə bildirdi ki, dadına doyulmayan və Naxçıvana məxsus olan qovurmanı hər il, demək olar ki, hər ailə tədarük edir. Oktyabrın sonu, noyabrın əvvəllərində, əsasən, erkək heyvan ətindən edirik qovurmanı. Əriştə kəsmək qış tədarükü kimi bu gün də davam etdirilir. Bu il havalar arada sərinlədi. Qışın tez düşəcəyindən tələşlanıb bir ay əvvəldən də əriştə kəsənlər oldu. Ancaq əriştəni, əsasən bu ayda kəsərlər. Tutmalar, şorabalar, mürəbbələr hazırlayırıq. İndi kəndimizdə xidmət mərkəzi fəaliyyət göstərir. Tədarük etdiyimiz, təsərrüfatımızda yetişdirdiyimiz məhsulları orada satışa da qoya bilirik. İndiki dövrdə də çörəyimizi təndirdə, öz unumuzdan bişiririk. Bu, çox dadlı və faydalıdır. Amma onu da deyim ki, kəndimizdə bir neçə çörək sexi də fəaliyyət göstərir. Bu il də doğma diyarımızda qış tədarükü vaxtında və lazımınca aparılır. Muxtar respublikamızda əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində atılan addımların nəticəsidir ki, hər il yeni-yeni istixana kompleksləri, soyuducu anbarlar qurulur. Bu da qış mövsümündə belə, əhalini təzə kənd təsərrüfatı məhsulları ilə təmin edir. Həm də ucuz qiymətə.Bununla yanaşı, ta qədim zamanlardan yay-payız aylarında öz halal zəhməti ilə min bir məhsul yetirməklə qış azuqəsi toplayan naxçıvanlılar özünəməxsus qış tədarükü ənənələrini də qoruyub yaşadırlar.

**Zaleh NOVRUZOV**

## Orta tibb işçilərinin sertifikasiya imtahanı olub

Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir. Sertifikasiya Ali Məclis Sədrinin Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Əsasnaməsinə edilmiş əlavə və dəyişikliklər haqqında fərmanına uyğun olaraq həyata keçirilir. Məqsəd əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının artırılmasından ibarətdir.

Oktyabrın 16-dan start götürən sertifikasiya imtahanlarının növbəti mərhələsində orta tibb işçiləri dörd gün ərzində öz bilik və bacarıqlarını sınayıblar.

Qeyd edilməlidir ki, muxtar respublikanın səhiyyə sistemində sertifikasiya imtahanları kompüterə verilmiş proqrama uyğun aparılır. Bu məqsədlə Naxçıvan Muxtar Respublika Xəstəxanasının elektron zalından istifadə edilir. Kompüter vasitəsilə proqrama uyğun olaraq ümumi sual bankından 2 müxtəlif variantda 60 test sualı və 5 klinik tapşırıq seçilir. Bu, imtahanların aşkarlıq və şəffaflıq şəraitində keçirilməsini təmin edir. Mərkəzləşdirilmiş qaydada, obyektiv və şəffaf surətdə keçirilən sertifikasiya tibb işçilərinin öz üzərlərində çalışmasına, tibb peşəsinin məsuliyyətini daha dərindən dərk etməsinə imkan yaradır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən suallar tərtib edilərək kompüterə yerləşdirilib. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 60 sual seçilərək imtahanda iştirak edən orta tibb işçilərinə təqdim olunub, eyni zamanda yazılı olmaqla, müsahibə mərhələsinin də sualları paylanılıb, cavablandırma qaydaları izah edilib. Məxfiliyin gözlənilməsi məqsədilə müsahibə sual kartlarında imtahan verən tibb işçisinin adı, soyadı yox, kod nömrəsi qeyd olunub. Üç saat davam edən imtahanın gedişinə imtahan-nəzarət komissiyası tərəfindən nəzarət edilib. İmtahan suallarının test hissəsi üzrə cavab kartlarının yoxlanması kompüterlə, klinik hissəsi üzrə cavabların qiymətləndirilməsi isə mütəxəssislərin iştirakı ilə aparılıb.

İmtahanlarda 161 orta tibb işçisi iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Dünən Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında uşaq incəsənət və bədii sənətkarlıq məktəblərində dərs deyən müəllimlərin və rəsm ixtisası üzrə təhsil alan şagirdlərin iştirakı ilə ustad dərsi keçilib.*

## Ustad dərsi keçilib

Təbiət təsvirinə həsr olunmuş ustad dərsi başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aparıcı məsləhətçisi Leyla Əlimərdanova bildirib ki, ustad dərsi nazirliyin tabeliyində olan uşaq incəsənət və bədii sənətkarlıq məktəblərində rəsm ixtisası üzrə dərs deyən müəllimlər və həmin ixtisas üzrə təhsil alan şagirdlər üçün rəssamlıq sənətinin tərkib hissəsi olan təbiət təsvirinə həsr edilib.

Sonra Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri, Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökümə Məmmədli və Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov rəssamlıq sənətində peyzaj təsvirinin incəliklərindən bəhs edərək praktik olaraq ustad dərsi keçiblər. Müəllim və şagirdlərə təsviri incəsənət tarixi haqqında da məlumat verilib, ümumilikdə, ustad dərslərinin şagirdlərdə estetik tərbiyəni, mənəvi-əxlaqi keyfiyyətləri inkişaf etdirdiyi vurğulanıb.

Sonda müəllim və şagirdlərin sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Ordubad rayonunun Üstüpü icmasının tender komissiyası icma qrupunun hazırladığı "Elektrik sistemlərinin bərpası və genişləndirilməsi" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

** Maraq məktubu*
** Nizamnamə*
** Maddi-texniki və insan resursları barədə məlumat*
** Son illərdə infrastruktur tipli layihələrdə iş təcrübəsinin olması*
**Maliyyə vəziyyəti barədə arayış.*

Qeyd olunmuş sənədlər toplusunu 27 oktyabr 2017-ci il, saat $18^{00}$-a kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Ordubad rayonu, Üstüpü kəndi, tender komissiyası icma qrupunun sədri Məhərrəm Fərzəliyev***
***Əlaqə telefonu: (051) 741 57 43***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 834